Balaca Zeynəbin böyük ata həsrəti

(Elegiya)

Mən aşiqəm Qarabağ,
Şəki, Şirvan, Qarabağ.
Min dərd qatsa başımı,
Yaddan çıxmaz Qarabağ.

Bu bayatı Ağabacı ananın dilindən düşmür. Bəlkə də gündə dəfələrlə bu bayatını çağırır. Elə bil bundan təsəlli tapır, ana ürəyi bir qədər yüngülləşir. 44 günlük Vətən müharibəsi qələbəmizlə başa çatsa da, ürəyindəki oğul dağını, nisgilini götürə bilmir. Axı, Qarabağ torpağında əziz-xələl övladı Aqşinin də qanı tökülüb. Hər dəfə Qarabağla bağlı bayatını çağıranda ona elə gəlir ki, Aqşin şəhid olmayıb, hələ də torpaq uğrunda savaşdadır...

Eh ... "ana ürəyi, dağ çiçəyi".-+ deyiblər. Ciyərparasının ölümündən sonra Ağabacı ananın yuxusu ərşə çəkilib. Elə bil bir addımlığında qalan Aqşin çağırışına gəlmir, üzünü ona göstərmir.

Ay Ağabacı...

- Həyat yoldaşı Nazim müəllimin kövrək səsi ani olaraq anani fikirlərdən ayırdı. Ailə həyatı qurandan ömürgün yoldaşı Nazimin səsinin bu qədər kövrək, həzin olduğunu hiss etməmişdi. İndi isə Nazim müəllim arvadının yanında kişilərə məxsus özünü qürurlu aparsa da, hiss edirdi ki, ürəyi ağlayır. Lakin Ağabacıya təsəlli olsun deyə bunu bürüzə vermir.

Ağabacı ana həmişəki kimi özünü ələ aldı, gözlərinin yaşını sildi. Arvadın xəstələnəcəyindən narahat olan Nazim müəllim üzünü ona tutub:

-Özünü çox üzməyin əgər bir faydası varsa, mən də qoşulum sənə, - dedi - Uşağın ruhuna xoş getməz. Bilirəm, ürək daş deyil, o ki, ana ürəyi ola...

Ağabacı ana ömür-gün yoldaşının təsəllisinə adəti üzrə yenə bayatı ilə cavab verdi:

Getdi gəlmədi axı,
Kimdən alım sorağı.
Ananın ürəyindən
Getməz heç oğul dağı.

... Məhsəti xanımla Aqşin bəy 2019-cu ildə ailə həyatı qurmuşdular. Bu izdivacdan gənc ailənin ilk qızı övladı dünyaya gəlmişdi. Atası Aqşinin həlak olduğu gün balaca Zeynəb 1 ay üç günlük idi. Atası tez-tez cəbhədən ailəsinə zəng edər, ata-anasını və bir də balaca Zeynəbi soruşardı. Atası Nazim müəllimlə telefon əlaqəsi saxlayıb deyərdi:

- Ata, məndən nigaran olmayın. Biz sürətlə ancaq irəli gedirik, düşmən nəyi varsa atıb qabağımızdan qaçır...

Boladi kəndində Mayor Aqşin İbadovun məxsus olduğu ailəni xeyirxahlığına, halallığına, vətənpərvərliyinə, ziyalılığına görə yaxşı tanıyırlar. Ailənin başçısı Nazim Mirzə oğlu İbadov Lənkəranda tanınmış pedaqoqdur. Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunu (indiki N.Tusi adına APU) bitirdikdən sonra 44 il Liman şəhər 1 nömrəli orta məktəbində riyaziyyatdan dərs deyib. 1972-ci ildən başladığı pedaqoji fəaliyyətini təqaüdə çıxandan sonra dayandırıb. Şagirdlərinin xoş sorağı nəinki Respublikamızın, eləcə də bir çox xarici ölkələrdən gəlir. Nazim müəllimin atası Mirzə İbadov da ali təhsilli kimya-biologiya müəllimi olub. Uzun illər doğma Boladi kəndində dərs deyib. Fəal həyat mövqeyi qazaman şagirdləri indi də sevimli müəllimlərini minnətdarlıqa xatırlayırlar.

Ailədə böyüyüb ərsəyə çatanların hamısının ürəyində müqəddəs Tanrı sevgisi olub. Başqa sözlə desək, bu halal ocaqda həmişə namazın səsi gəlib. Təbii ki, bu da ailə üzvlərinə irsən keçib. Bunun kökü Nazim müəllimin babası Məmmədhüseyn Axund Kərbəlayi İbad oğlundan gəlir. Məmmədhüseyn Axund 13 il Nəcəfül-Əşrəfdə dini təhsil alıb. Nazim müəllim özü və ömürgün yoldaşı Ağabacı ana da namaz qılıb oruc tutmaqla bu müqəddəs ənənəni davam etdirir, övladlarına və nəvələrinə bir vərdiş kimi aşılayırlar.

Məhz belə bir halal ocaqda Nazim müəllimin və Ağabacı ananın 4 oğlan övladı dünyaya göz açıb. Ailənin böyük oğlu övladı Emil 1975-ci ildə təvəllüd tapıb. Azərbaycan Dövlət İqtisad Universitetini bitirdikdən sonra bir müddət Nizami adına sovxozda fəhlə, sonra isə Lənkəran şəhər 7 nömrəli Ərazi-Nəqliyyat Kontorunda kiçik mühasib işləyib. Birinci Qarabağ müharibəsi başlayanda hərbi xidmətə çağırılıb. 1993-1997-ci illərdə Ağdam istiqamətində gedən döyüşlərdə hərbi rabitəçi kimi tapşırıqları uğurla yerinə yetirib. Ailəlidir, 2 uşağı var. Həyat yoldaşı İbadzadə Gülnarə Hacağa qızı tarix müəllimidir, uzun illər orta məktəbdə dərs deyib. Hazırda Bank Kredit İttifaqının sədridir.

Ailənin ikinci oğul övladı Cəmil İbadov 1977-ci ildə Boladi kəndində doğulub. Kənd orta məktəbini bitirdikdən sonra, yəni 1996-cı ildə hərbi xidmətə çağırılıb. Keşfiyyat qrupunun baş çavuşu olub. Ön dəfə düşmən arxasına keçən Cəmil İbadov əsasən Xankəndində, Kolbəcərdə keşfiyyat işi aparıb. 1998-ci ildə düşmənin 4 rabitə maşınını partladıb. 1999-cu ildə Gizir Məktəbinə daxil olub. Məktəbi bitirdikdən sonra Türkiyə Respublikasına göndərilib. Adana və İzmirdə tank alayının təlimlərində iştirak edib. 2000-ci ildə hərbi hazırlıqla bağlı Bakıda Heydər Əliyev Sarayında keçirilən tədbirdə təcrübəli hərbçi kimi çıxış edib. 44 günlük Vətən müharibəsində tank döyüşlərində iştirak edib. Hazırda 25 ildir ki, hərbi xidmətini davam etdirir. Ailəlidir, iki uşağı var.

Ailənin üçüncü oğul övladı olan Məmmədhüseyn İbadov 1982-ci ildə dünyaya göz açıb. 2000-ci ildə Boladi kənd orta məktəbini bitirdikdən sonra Heydər Əliyev adına Bakı Ali Hərbi Məktəbinə daxil olub. 2004-cü ildə həmin məktəbi kəşfiyyatçı ixtisası üzrə bitirib. Naxçıvanda bir müddət kəşfiyyat bölümündə, xüsusilə Azərbaycanın Milli Qəhrəman Mübariz İbrahimovun adını daşıyan və Topqaraqoyunlu kəndində yerləşən postda xidmət edib. Sonra Akstafa hərbi hissəsində kəşfiyyat rəisi, əməliyyat bölümünün rəisi vəzifələrində çalışıb. Hərbi Akademiyanın məzunu, polkovnik - leytenant Məmmədhüseyn İbadov həmçinin Şəmkir Ordu Birləşməsində əməliyyat rəisinin müavini işləyib. 44 günlük Vətən müharibəsində peşəkar hərbçi kimi döyüşlərə qatılıb. Müharibədə müxtəlif ən çətin döyüş əməliyyatlarının hazırlanmasında və həyata keçirilməsində xüsusi xidmətləri olan polkovnik-leytenant hazırda hərbi xidmətini davam etdirir.

Ailənin sonuncu oğul övladı olan Aqşin İbadov ailədə mövcud hərbçi ənənəsini bir estafet kimi daha irəli apardı. Qardaşları kimi hərb sənətini seçən Aqşin general olmaq arzusu ilə yaşayırdı.

Aqşinin tərcümeyi-halında qardaşlarından fərqli olaraq heç nə yoxdur. O da qardaşları kimi Boladi kəndində Nazim müəllimin halal ocağında ərsəyə çatıb. Ağabacı ananın kövrək, həzin laylası ilə böyüyüb. Aralarındakı fərq burasında idi ki, Aqşin mayor kimi II Qarabağ uğrunda döyüşlərə qatıldı, hərbi istedadını tamam ortaya qoya bildi və şəhidlik məqamına yüksələrək qəhrəman kimi doğma Lənkərana, eləcə də Boladi kəndinə qayıtdı. Yaşadığı çox qısa, lakin şərəfli bir ömrün hər ilində silinməz izlərlə, xoş xatirələrlə yadda qaldı. Başqa sözlə desək, o tökcə Nazim müəllimin, Ağabacı ananın deyil, başı müsibətlər çəkən bir xalqın, 30 il Qarabağ həsrəti ilə yaşayan və Aqşin kimi qəhrəmanların, ölümün gözünə dik baxan şəhidlərin canı, qanı bahasına doğma torpağa qovuşan Vətənin övladına çevrildi.

36 illik qısa bir ömürdə bugünkü gənclik və gələcək nəsillər üçün örnək sayılacaq nələr yoxdur. Bu ömür kitabını vərəqlədikcə qarşımızda Ulu Babəkin, Cavanşirin, Həzi Aslanovun, Polad Həşimovun, Mübariz İbrahimovun... həyaqətli varisləri canlanır. Elə varislər ki, ömürlərini Vətənin ömrünə qatdılar. Elə varislər ki, Vətən, mənsub olduqları xalqın qeyrəti onlar üçün canlarından daha əziz idi. Elə varislər ki, onlar xalqının üzündən məğlubiyyət ləkəsini sildilər, bu xalqın adını tarixə qalıb kimi yazdılar.

Belə qəhrəman varislərdən biri də mayor Aqşin Nazim oğlu İbadov idi. 1984-cü ildə Boladi kəndində dünyaya göz açan istedadlı hərbçi elə həmin kənddə orta məktəbi bitirib. Hələ orta məktəbdə oxuyarkən bir dərs əlaçısı kimi rayon və Respublikada müxtəlif fənn olimpiadalarının qalibi olub. Eyni zamanda hərb sənətinə böyük maraq göstərirdi. İki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanov haqqında yazılan bütün kitabları oxumuşdu. Onun həyatı və döyüş fəaliyyətini özünə ideal seçmişdi. Hətta böyük sərkərdəyə bənzəyi hədsiz sevginin əlaməti olaraq məktəbdə ona həsr olunmuş tədbirdə Xalq şairi Səməd Vurğunun ürək yanğısı ilə Həzi Aslanovun ölümünə yazdığı şeiri əzbər söyləmişdi.

2001-ci ildə orta məktəbi bitirən Aqşin İbadov elə həmin il Heydər Əliyev adına Bakı Ali Hərbi Məktəbinə 595 balla daxil olub. 2018-ci ildə isə təhsilini Hərbi Akademiyada davam etdirib.

Atası Nazim müəllimin dediyinə görə Aqşinin məhz hərb sənətini seçməsi onun ürəyincə olmayıb. Başqa peşə seçməyi ona tövsiyyə edib. Çünki ailədə Aqşindən əvvəl 3 hərbçi vardı. Lakin Aqşin hərb sənətinə olan sevgisini boğa bilmədiyi üçün hətta əmrində ilk dəfə çox sevdiyi atasının sözündən çıxaraq:

-Ata, oğluna ancaq xeyir-dua ver, - demişdi - Bilirsən ki, bu, mənim çoxdankı arzumdur. Ailəmizdə polkovnik var, mən isə general olmaq istəyirəm...

Bu sözlərdən sonra Nazim müəllimin sonuncu oğul övladına xeyir-dua verməkdən başqa çarəsi qalmayıb.

... Aqşin İbadov Bakı Hərbi Akademiyasında 4 ay oxuduqdan sonra qardaş Türkiyəyə göndərilib. Orada həm Hərbi Akademiyada təhsilini davam etdirib, həm də Milli Müdafiə Universitetində Beynəlxalq Təhlükəsizlik və Hərbi Əməkdaşlıq üzrə magistr təhsili alıb. Nəhayət, 2020-ci il sentyabrın 25-də doğma Azərbaycana qayıdıb. Sentyabrın 27-də isə Azərbaycan Silahlı Qüvvələrinin əks-hücum əməliyyatı ilə II Qarabağ müharibəsi başlayıb. Elə həmin gün Xüsusi təyinatlı hərbi hissəyə növbətçi zabit kimi xidmətə göndərilib. Lakin bu, gənc hərbi zabitin ürəyincə deyildi. Tökidlə etiraz edib dedi:

- Mən döyüşən orduya getmək istəyirəm. Ölüm-dirim savaşı gedir. Burada necə rahat ola bilərəm...

Sentyabr ayının 28-i. Vətən müharibəsinin ikinci günü. Yenə hərbi hissə komandanlığına müraciət edərək döyüşə getmək istədiyini bildirdi. Tökidlə dedi ki, yiyələndiyim hərbi biliyi döyüşən orduda göstərmək, Xocalı qisasını almaq istəyirəm. Qulağıma Xocalıda yandırılan körpələrin, amansızlıqla qətlə yetirilən qadınların, qocaların ərşə qalxan fəryad səsi gəlir, tərəddülən dəhşətli cinayətin tükürpədici mənzarəsi gözümün önündə canlanır. Qisas hissə məni qatillərə qarşı amansız döyüşə çağırır.

Sentyabrın 29-da mayor Aqşin İbadov peşəkar keşfiyyatçı qrupunun komandiri kimi nəhayət döyüşlərə qatılıb. Onu üç gün idarəetmə məntəqəsində saxlayırlar ki, döyüşü idarə etsin. Özünə məxsus hərbi taktikası vardı. Çalışırdı ki, itkisiz və ya çox az itki ilə düşmən postlarını elə keçirsin. Və buna nail də olurdu. Dəfələrlə komandiri olduğu diversiya qrupu düşmənin ən mühüm postlarını almış, ordumuzun geniş miqyaslı hücumu üçün yol açmışdı...

Aqşin ən çətin döyüş tapşırıqlarını yerinə yetirməyə daha çox maraq göstərirdi. Komandanlıq bunu bildiyi üçün bir gün ona daha mühüm tapşırıq verdi: "Tuğ kəndinin yuxarısında strateji əhəmiyyət daşıyan yüksəkliyi ələ keçirmək!"

Tapşırıq çətin olsa da, onu yerinə yetirmək çox vacib idi. Düşmən yüksəklikdə, 70 nəfərdən ibarət döyüşçülərmiz isə aşağıda mövqe tutmuşdular. Düşmənin aramsız atəşlərinə baxmayaraq sıx meşəlik əsgərləri qoruyur, onların yüksəkliyə doğru irəliləməsinə şərait yaradıdı. Komandirin yüksək hərbi sərişləri, ən çətin vəziyyətdə düzgün qərar qəbul etmək bacarığı döyüşün taleyini həll etdi. Heç bir itki verilmədən strateji yüksəklik alındı.

Bu, mayor Aqşin İbadovun növbəti döyüş uğuru olsa da sonuncu olmadı. Yüksəklik alınandan sonra əmr etdi ki, əskərlər dincəlsinlər. Üstündə su qabı vardı, suyunu içməmişdi. Onu döyüşçülərə verdi ki, hamı içsin. Eyni zamanda meşəlikdə mühafizəçi saxlamaq lazım gəldi. Çünki arxayınlaşmaq, sayıqlığı itirmək hər an baha başa gələ bilərdi. Bu missiyanı bir baş leytenant öz üzərinə götürdü. Aradan bir saat keçməmişdi ki, komandirə məruzə olundu: "Düşmən yeni qüvvə ilə üstümüzə gəlir". Məruzəni çox təmkinlə dinləyən komandir zarafata keçdi:

- Qılınclarınızı sıyırın!...

Əslində komandir bununla döyüşçülərin silahlanmasına işarə edirdi. Düşmən onların yerləşdiyi mövqedən təxminən 400 metr aralıda idi. Komandir vaxtı itirmədən döyüşçüləri 4 qrupa böldü. Sağ və sol cinahlardan ibarət qruplar mövqelərini tutdular. 3-cü qrup düşmən arxasına keçdi. Dördüncü qrup isə düşməni üzbəüz qarşıladı. Düşmən özü də bilmədən artıq tələyə düşmüşdü. Dəqiq taktiki gediş öz müsbət nəticəsini verdi. Bütün cəbhədə baxmayaraq düşmən mühasirəni yara bilmədi. Beləliklə 60 nəfərlik düşmən qrupu tamamilə məhv edildi.

Neçə-neçə döyüş uğurlarına imza atan mayor Aqşin İbadov da qısa, lakin nəsillərə örnək olacaq bir ömrü canından çox sevdiyi Vətənin ömrünə qatdı. İndi həyatda olmasa da ondan xoş xatirələr qaldı.

Aqşin İbadovun bütün döyüş uğurlarının kökü hələ Aprel döyüşündən gəlirdi. Onu general Polad Həşimovla qırılmaz dostluq telləri bağlayırdı. Şəmkir hərbi hissəsində bir yerdə işləyirdilər. Polad Həşimov Aqşinin hərbi istedadına yaxşı bələd idi. Komanda-qərargah təlimlərində; döyüş əməliyyatlarının hazırlanmasında məhz onunla məsləhətləşərdi. Təlimlərin uğurundan söz açan general deyərdi:

- O məsələnin ki, şərhini, izahını Aqşin verə, onda əlavə izaha heç bir ehtiyac qalmır. O, hərb üçün doğulub...

O vaxt özündən böyük qardaşı mayor Məmmədhüseyn İbadov da general Polad Həşimovun komandiri olduğu hərbi hissədə xidmət edirdi. O illəri xatırlayan peşəkar hərçi deyir:

- Bir dəfə general Polad Həşimovla təsadüfən rastlaşdıq. Hərbi salam verdim. O, salamımı əsl hərbçiyə məxsus ehtiramla aldı və soruşdu:

- Ay Mamed (məni həmişə belə çağırardı) mənimlə niyə əl verib görüşmürsən? Həmişə kimi özümə dikilən gülümsər baxışları hamının çox sevdiyi generalla daha ərklə, yaxından danışmağıma imkan verdi:

- Cənab general - dedim - Mən mayoram, siz general. Mən kiməm ki, hədsiz humanistliyinizdən, xeyirxahlığınızdan istifadə edib sizinlə belə ərklə görüşüm.

General lap yaxına gəldi, əlimi bərk-bərk sıxıb:

-Nə danışırsan, ay Mamed, - dedi - sən ki, hər şeydən əvvəl Aqşinin qardaşısan...

Aqşin Azərbaycanın hərb sənətinə hələ çox töhfələr verə bilərdi. Müasir hərb döyüşündə müəyyən uğurlara imza atsa da, onun bir peşəkar hərbçi kimi istedadını, bacarığını tam ortaya qoymaq üçün vaxtı çatmadı. İstər hərbçi, istərsə də uşaqlıq, gənclik dostları gənc hərbiçinin yoxluğunu heç cür həzm edə bilmirlər. Aqşin şəhid olan günü qardaş türk generalları Fərhad Paşa Özgan, Osman Qazi Kandemir şəxsən zəng edib ailəsinə başsağlığı veriblər.

Hər il Novruz bayramı günü Heydər Əliyev adına Bakı Ali Hərbi Məktəbinin məzunları Boladi kəndinə gələrək tələbə yoldaşlarının məzarını ziyarət edirlər. Onlar Boladi kəndində yaşayan valideynlərinə, ailəsinə də baş çəkir, atası Nazim müəllimin, anası Ağabacı xanımın kədərinə şərik olur, ehtiyacları ilə maraqlanırlar...

Hazırda Respublika Müdafiə Nazirliyinin məsul işçisi olan Müqabil Hüseynov tələbə dostu Aqşin haqqında ürək dolusu danışıb deyir:

- Biz Müdafiə Nazirliyinin Otel tipli yataqxanasında qalırdıq. Sonradan bizi Türkiyəyə göndərdilər. Qardaş ölkənin Hərbi Akademiyasında hərbçi təhsilimizi davam etdirdik. Türk hərbçi müəllimlərdən qiymət almaq çox çətin idi. Necə deyərlər, qiymət alanda az qala yediyimiz burnumuzdan tökülərdi. Yeni həddindən artıq tələbkarlıq vardı. Lakin Aqşin üçün qiymət almaq o qədər də çətin deyildi. O, istər dərslərdə, istərsə də ictimai fəallığı ilə seçilirdi. Aqşin bizdən yaşca, rütbəcə kiçik idi, lakin biz onu yüksək mənəvi keyfiyyətlərinə, hər işdə qətiyyət, fəallıq göstərdiyinə görə ağsaqqal seçmişdik...

İndi Türkiyə Hərbi Akademiyasının məzunları arasında Lənkəranlı mayor Aqşin İbadovun adı da iftixarla çəkilir. Təsadüfi deyil ki, 2020-ci il noyabrın birində Akademiyada tədris ilinin başlanması münasibətilə Atatürkə həsr edilən toplantıda məzun, Qarabağ şəhidi Aqşin İbadov da anılıb. Eyni zamanda qeyd edək ki, Türkiyə Milli Müdafiə Universitetini hər il onlarla gənc hərbçi bitirir. Lakin Universitetin emblemi heç də hər məzuna verilmir. Aqşin isə bu emblemi almağa müvəffəq olub...

Aqşin İbadovun türk dostlarından biri də Metye idi. Metye hazırda Belçikada yaşasa da Türkiyədə olanda dostlaşmışdılar. Ensiklopedik biliyə malik olan Aqşinlə söhbətləri ilk gündən tutdu. Məşhur iş adamı olan Metye Aqşinin həlak olması xəbərini eşidəndə çox sarsılır. Qərara alır ki, dostunu yaşatmaq üçün nəsə bir iş görməlidir. Onun Afrikada da çoxlu obyektləri vardı. Bilirdi ki, Aqşin həm də Allah adamı idi. Namaz qıldığını, oruc tutduğunu çox görmüşdü. Elə buna görə də Afrikada daha bir obyekt - dəstəmazxana tikdirir. İndi həmin obyekt Aqşinin adını daşıyır.

-Övladlarım arasında mənəviyyatca ən zəngin olanı Aqşin idi, - deyə şəhid mayorun atası Nazim İbadov oğlu barədə bəzi təfərrüatları da açıqladı - məlum olduğu kimi, hərbi üçün hərtərəfli idman hazırlığına malik olmaq çox önəmlidir. Aqşinin yüksək idman hazırlığı vardı. Şahmatı daha çox sevərdi. Respublika idman naziri mərhum Azad Rəhimovun imzası ilə bir çox yarışların qalibi kimi fəxri fərmanla təltif edilmişdi. Eyni zamanda mütəlisi çox sevirdi. Əsasən hərbi ədəbiyyatı mütalə edərdi. Böyük rus yazıçısı Lev Tolstoyun "Hərb və sülh" romanını, "Koroğlu" dastanını, həmyerlimiz, əfsanəvi sərkərdə general -mayor Həzi Aslanov haqqında yazılan bütün kitabları və s. təkrar-təkrar oxumuşdu. Rus, ingilis və erməni dillərini mükəmməl bilirdi. Allaha çox bağlı idi. Namaz qılar, oruc tutardı. Arzulayırdı ki, müharibədən sonra Kərbəla ziyarətinə gedəcək. Bizi də aparacağını vəd etmişdi. Lakin bu yalnız arzu olaraq qaldı. O, şəhidliyin zirvəsinə yüksəlib çox sevdiyi Allahın dərgahına yetişdi. Onda bu günkü gənclik, gələcək nəsillərə örnək ola biləcək keyfiyyətlər çox idi. Hansını deyim, özüm də bilmirəm. Hamıya qarşı diqqət göstərir, böyük-kiçik yerini bilirdi. Həmişə az yeyərdi. Bunu ona irad tutanda deyərdi ki, az yeməkdən heç bir ziyan gəlməz. Sonra dahi şairimiz Nizami Gəncəvinin məşhur misralarını xatırladardı: "Bir inci saflığı varsa da suda, artıq içləndə dərd verir o da".

Bu yerdə Nazim müəllim dərindən köks ötürdü. Ani olaraq gözləri yol çəkdi. Sonra əlavə etdi:

-Hara gedərdisə qayıdıb bizə mütləq baş çəkərdi. Həyətə gülə-gülə daxil olardı. Üzündə həmişə təbəssüm görərdik. Elə bilirəm ki, o, yenə həyatdadır, harasa gedib, qayıdıb indicə gələcək. Lakin ... Bilirsən, Qurani - Kərimdə buyrulur ki, Vətəni sevmək, onu qorumaq imandandır. Bir ata kimi ürəyimə təsəlli budur ki, Aqşin Vətən yolunda canından keçib. Şəhidlik məqamına yüksəlib ki, Vətən yaşasın. İndi o Vətənin, mənsub olduğu xalqının övladıdır. O öz şəhidliyi ilə bizə qürur yaşadır. Döyüş yoldaşları sağ olsunlar, bizi tez-tez axtarırlar. Onlar deyirlər ki, Aqşin tabeliyində olan döyüşçülərə ölümdən qorxmamağı tövsiyyə edirdi. Deyirdi ki, qorxaqlıq döyüşü uduzmaq deməkdir. Döyüşdə olarkən hər 4-5 gündə mənimlə danışardı. Lakin zənglər birdən-birə kəsildi. Artıq beş gün idi ki, onun səsini eşitmirdik. Oktyabrın 19-da həlak olmuşdu. Böyrəyindən dəyən minomyot qəlpəsi ilə dünyasını dəyişmişdi...

Nazim müəllim daha danışa bilmədi. Onu qəhər boğurdu. Təbii ki, atanı başa düşmək olardı... Övlad itkisi valideyn üçün ən ağır dərddir. Bu dərd ata-ana ilə məzara gedir.

Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə qalxan mayor, keşfiyyat komandiri Aqşin Nazim oğlu İbadov doğulduğu Boladi kənd qəbristanlığında böyük bir izdihamla dəfn olunub. Onun uyuduğu məzar elin ziyarətgahına çevrilib.

Boladi kəndinin izdihamlı küçələrinin birində dəmir bir lövhə uzaqdan diqqəti cəlb edir. Əksi həkk olunan bu lövhədən II Vətən müharibəsinin şəhidi mayor Aqşin İbadov baxır. Lövhənin yanından heç kəs laqeyd ötmür. Hamı ehtiramla ayaq saxlayır, istər-istəməz dodaqlarından bu sözlər qopur: "Salam eloğlu, məhz şəhidlərin sayəsində biz böyük qələbəyə qovuşduq. Səninlə qürur duyuruq. Allah sənə rəhmət eləsin!"

Nəsillər dəyişəcək, lakin bu dəmir lövhə həmişəllik qalacaq və başının üstündə Azərbaycanın üçrəngli Bayrağı dalğalanan Aqşin İbadov daim bu lövhədən boylanıb baxacaq və doğma kəndini seyr edəcək, dünyaya göz açan yeni nəsillərin salamlarını qəbul edəcək, onlara qürur yaşadacaq.

Hələ qəhrəman atasından xəbərsiz olan balaca Zeynəb! Hansı ki, Aqşinin həlak olduğu gündə onun bir il dörd ayı tamam oldu. İllər ötəcək, o da böyüyüb ərsəyə çatacaq. Kim bilir, fəal həyat mövqeyi tutmaqla bəlkə o da atası kimi mənsub olduğu nəslin daha bir şöhrət tacı olacaq. Lakin hər dəfə bu lövhə ilə qarşılaşanda ürəyində bir nisgil baş qaldıracaq, atasızlıq nisgili. Atasının lövhədən ona diklən baxışları bu nisgili tezliklə itirəcək, yerini qürur hissinə verəcək. Onda Zeynəb xatirələrdə qalan atalı dünyaya qayıdacaq və burdan ehtiramla ayaq saxlayıb ötənlərə iftixarla deyəcək: "Baxın, baxın, bu mənim atamdır, böyük qələbə sevincini bizə yaşadan atam! Dodaqlarımızdakı gülüşlərdə, özümüzdəki təbəssümdə, ciyərlərə çəkdiyimiz təmiz havada, yediyimiz halal çörəkdə, içdiyimiz inci kimi saf suda, gəzdiyimiz bu torpaqda onun da payı ... var..."

Əlizadə ƏSƏDOV,
Əməkdar müəllim,
Beynəlxalq dərəcəli hakim,
"Azad Azərbaycan"
qəzetinin əməkdaşı